بسم الله الرحمن الرحيم

14 məsumun (ə) həyatı

# İmam Səccad (ə)



**Kitabın adı: İmam Səccad (ə)**
**Tərcümə edən: Tərcümə edən**
**Çap tarixi: 2018**
**Çap növbəsi: Birinci**
**Tiraj: 1000**

**Издательство «Свет»**
**Типография «Махаон», 2018**

**ISBN 5-18-060518-3**



Adı: Əli
Məşhur ləqəbi: Zeynəlabidin
Künyəsi: Əbu Məhəmməd, Əbülhəsən
Atası: Hüseyn (ə)
Anası: Şəhrəbanu
Doğum tarixi: 38-ci hicri-qəməri ili, 5 şaban
Doğulduğu yer: Mədinə
İmamlıq müddəti: 35 il
Ömrü: 57 il
Şəhid olduğu tarix: 95-ci hicri-qəməri ili, 25 məhərrəm
Qatilinin adı: Vəlid ibn Əbdülməlik
Dəfn yeri: Mədinə, Bəqi qəbiristanlığı





## İmam Səccadın (ə) təvəllüdü

İmam Səccad (ə) hicrətin otuz səkkizinci ili, şəban ayının beşində Mədinə şəhərində səhər vaxtı dünyaya göz açdı. O, dünyaya gəldikdən sonra anası vəfat etdi və onu mehriban bir dayəyə tapşırdılar. Həzrətin uşaqlıq illəri Mədinə şəhərində keçmişdir.

İki yaşında ikən babası imam Əli (ə) şəhid oldu və bundan sonra on il müddətində əmisi imam Həsən Müctəbanın (ə) imamlıq dövrünün hadisələrinin şahidi oldu. İmam Həsənin (ə) şəhadətindən sonra hicrətin əllinci ilində on il atası imam Hüseynin (ə) imamlıq dövründə atası ilə çiyin-çiyinə Müaviyənin hakimiyyətinə qarşı mübarizədə yaxından iştirak etdi.

İmam Səccadın (ə) anası İran şahı III Yəzdəgirdin qızı Şəhribanu olub. III Yəzdəgirdin qoşunu müsəlmanlara məğlub olduqdan sonra qızı da bir çoxları kimi əsir düşür və onlarla birgə Mədinəyə gətirilir.

O zaman həzrət Əli (ə) əsirlərə dair belə göstəriş verdi: “Peyğəmbər (s) buyurmuşdur ki, sizinlə müxalif ollanların qəbilə başçı və böyüklərilə hörmətlə davranın. Əsirlərin arasında İranın mənsəb sahibləri vardır. Kəniz və qulluqçu sahibi olanı satmaq yaxşı deyil.”

Beləliklə, imam Əli (ə) Şəhribanunun kəniz kimi satılması, yaxud kiminsə ixtiyarına keçməyinə icazə vermədi. Biri soruşdu: Bəs, çarəsi nədir? Əli (ə) buyurdu: “Onu azad edin və ixtiyarını özünə tapşırın. Kimi bəyənsə, onunla evlənsin və mehriyyəsi də yoldaşının beytül-maldakı payından hesablansın.”

Təklif bəyənildi və bundan sonra Şəhribanu cavanlar arasında imam Hüseyni (ə) seçərək o həzrətlə evləndi.



## İmam Səccadın (ə) anasına böyük hörməti

Anasını hələ uşaq vaxtı itirən imam Səccadı (ə) saxlamaq üçün mehriban bir dayəyə tapşırdılar. Həzrət dayəsinin ona mehribanlığını görür və həmişə onun bu yaxşılığının əvəzini çıxmağa çalışırdı. Hətta ondan qabaq yeməyə tərəf əl uzatmaz və buyurardı: “Xoşlamıram anamdan (dayəsi) qabaq süfrədə bir şeyə əl uzadım. Ola bilər ki, o da həmin anda onu götürmək istəsin. Bu özü mənim tərəfimdən ona qarşı ədəbsizlik olar.”



## İmam Səccadın (ə) ibadət və namaza verdiyi önəm

İmam Səccad (ə) həyatda çoxlu ibadətinə görə Zeynəlabidin (ibadət edənlərin zinəti) adlandırılmışdır. O, gündüzlər işləyir, xalqın çətinliklərini aradan qaldırmağa çalışır (bu özü böyük ibadət sayılır), gecələr isə Allahla raz-niyaz edir, saatlarla münacatla məşğul olurdu. İbadət zamanı Allahla münacata elə qərq olurdu ki, heç nə onu ibadətdən ayıra bilmirdi.



## Axirət səfəri üçün azuqə

İmam Səccadın (ə) səhabələrindən biri belə nəql deyir: “Soyuq və qaranlıq qış gecələrinin birində gördüm ki, həzrət Zeynəlabidin (ə) çiyninə bir qədər odun götürüb, yavaş-yavaş harasa gedir. Öz xidmətçimlə irəli gedib, salam verdim və soruşdum:

– Ey Peyğəmbər övladı! Bu ağır yüklə hara gedirsiniz? İmam buyurdu:

– Səfərə gedirəm. Yol azuqəsi hazırlamışam, onu yerinə çatdırmalıyam.



– İcazə verin, yükü xidmətçim sizin üçün aparsın.

– Xeyr.

– Onda icazə verin, mən onu aparım.

– Mənim qurtuluşumu təmin edən və səfəri asanlaşdıran bir yükü başqasına tapşıra bilmərəm.

İmamdan ayrılıb getdim. Bir neçə gündən sonra yenə həzrəti gördüm. Dedim:

– Bəs, səfərə getməmişdinizmi? Buyurdu:

– O səfər, sənin düşündüyün səfər deyildi. Məqsədim axirət səfəri idi.

İmam Səccad (ə) belə səfərlərdə ehtiyaclılara lazım olan un, yemək, geyim, odun və digər şeylər aparır, bu səfəri özü üçün axirət səfəri hesab edirdi.



**İmam Səccadın (ə) xəstəliyi ilahi məsləhət üzrə idi**

Təəssüflər olsun ki, Əhli-beytin (ə) məqamı haqda anlayışı məhdud olan müsəlmanların bir qismi dördüncü imamı xəstə bir fərd kimi xatırlayır. Halbuki, əslində heç də belə deyil. Çünki imam Səccad (ə) yalnız Kərbəla hadisəsində qısa müddətdə xəstə olmuş və bu hadisədən sonra sağalmış və təxminən otuz beş ilədək digər imamlar kimi sağlam bədənlə fəaliyyət göstərmişdir. Şübhəsiz, onun Kərbəlada hadisəsindəki müvəqqəti xəstəliyi Allahın bir lütf və məsləhəti üzrə olmuşdur. Belə ki, imamın müqəddəs vücudu Yezidin muzdurlarının ölüm təhlükəsindən amanda qalmış və imamət silsiləsinin ardı davam etmişdir.

Əgər imam (ə) Kərbəla hadisəsində xəstələnməsəydi, mütləq cihadda iştirak etməli idi. O zaman atasının başqa oğul və tərəfdarları kimi şəhid olardı və imamət nuru da birdəfəlik sönərdi.

İmam Səccadın (ə) yaşadığı dövrə repressiya və diktatura şəraiti hakim idi. Həzrət bir çox məqsədlərini dua və münacat şəklində açıqlayırdı. Onun (ə) dualar toplusu "Səhifeyi-Səccadiyyə" adı ilə tanınır. Hal-azırda bu əsər özü ayrılıqda Quran və Nəhcül-bəlağədən sonra ilahi maarif və dərin dini təfəkkürlə əlaqədar ən önəmli və ən dəyərli xəzinə hesab olunur.

Səhifeyi-Səccadiyyə təkcə Allahla raz-niyaz və Onun dərgahından hacət diləməkdən ibarət deyil. Bu toplu dua dili ilə bəyan edilən etiqadi, ictimai, mədəni, siyasi və bir sıra şəriət qanunları və hökmlərini özündə əks edən islami elm və maarif dəryasıdır.

## Bir qocanın tövbəsi



Kərbəla əsirləri Şam şəhərinə daxil olanda bir qoca kişi onlara yaxınlaşaraq dedi: Allaha şükür olsun ki, sizi qırdı, kişi tayfanızı o dünyaya göndərməklə bütün şəhərlərə əmin-amanlıq verdi.

İmam Səccad (ə) onun nalayiq sözləri qurtaranadək susandan sonra belə buyurdu: Ey qoca! De görüm, Quran oxumusanmı?

Dedi: Bəli.

İmam (ə) buyurdu: Onda bu ayəni də oxumusan: “(Ey Peyğəmbər!) De: “Mən sizdən bunun (risalətin təbliğİ) müqabilində qohumluq məhəbbətindən (Əhli-beytə sevgidən) başqa bir şey istəmirəm.” (“Şura” surəsi, ayə 23)

Dedi: Bəli.

İmam buyurdu: Bəs, bunu da oxumusan: “Bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasınındır.” (Ənfal surəsi, ayə 41)

Dedi: Bəli, oxumuşam.

İmam buyurdu: Bu ayəni də oxumuş olarsn: “Həqiqətən Allah Taala yalnız siz Əhli-beytdən pislik və çirkinlikləri uzaqlaşdırıb, sizi pak və pakizə etmək istəyib.” (“Əhzab” surəsi, ayə 33)

Qoca dərhal dedi: Bəli, mən bu ayələri oxumuşam. Həzrət ona baxdı və bir az sükut etdikdən sonra buyurdu: “(Ayələrdə gələn) Əhli-beyt bizik və bu ayələr yalnız bizə aiddir!” Qoca dediklərindən peşman olaraq ağladı və başını göyə qaldırıb, dedi: “İlahi, mən Ali-Məhəmmədin (s) düşmənlərindən sənə şikayət edirəm!”

**İmam Səccad (ə) Aşura hadisələrinin carçısı**

Kərbəla faciəsindən sonra əsirlər karvanını imam Səccadla (ə) bərabər hədsiz hörmətsizliklə Yezidin məclisinə gətirdilər. Məclisdə saray əyanları, Şamın böyükləri iştirak edirdi. Taxtda oturmuş Yezid imam Səccada (ə) xitab edərək dedi: Həmd olsun atanı öldürən Allaha!





İmam qətiyyətlə buyurdu: “Allahın lənəti olsun atamı öldürənlərə!” Həzrətin sözündən hiddətlənən Yezid əmr etdi ki, onu qətlə yetirsinlər. İmam buyurdu: “Əgər məni öldürsən, məndən başqa pənahları olmayan qadın və uşaqları Mədinəyə aparmağı əmin bir şəxsə tapşır.” İmamın qətiyyətli sözləri müqabilində Yezid öz fikrindən döndü. İmam Səccadla (ə) həzrət Zeynəbin (ə) Şamda söylədikləri kəskin çıxışları siyasi-ictimai durumun dəyişməyinə bais oldu.

İmam Səccad (ə) xalqı oyatmaq, həqiqəti açmaq, Yezid və Bəni-Üməyyənin zalım hakimiyyətini ifşa etmək üçün Aşura hadisəsindən çox yararlanmışdır. Fürsət düşən kimi, həzrət Kərbəlanın acı hadisələrini danışır, Yezidin törətdikləri cinayətləri ifşa edir və atası Hüseynin (ə) qiyamını diri saxlayırdı. Demək olar, o həzrət Aşura faciəsindən azğın durumun əleyhinə güclü təbliğat silahı kimi istifadə edirdi.



## İmam Səccadın (ə) Yezidə üç təklifi

Vəziyyəti tamamilə öz əleyhinə görən və hökumətinin sütunlarının təhlükəyə düşməsini hiss edən Yezid həzrət Zeynəlabidinə (ə) onun üç istəyini yerinə yetirməyə hazır olduğunu bildirdi. İmam buyurdu:

1. Birinci budur ki, atamın müqəddəs başını görüb, onu ziyarət edim.
2. İkinci istəyim, bizdən qarət edilən əmlakın geri qaytarılmasıdır. Çünki onların arasında anamız həzrət Fatimənin (ə) öz əli ilə toxuduğu parça, yaylıq, boyunbağısı kimi yadigarlar vardır.
3. Üçüncü istəyim odur ki, əgər məni öldürmək qəsdin varsa, onda bu qadın və uşaqları etibarlı bir adamla cəddimin hərəminə sağ-salamat çatdır.

Yezid imamın birinci istəyini qəbul etməyib, ikinci və üçüncü ilə razılaşaraq dedi: Qadın və uşaqları özün Mədinəyə aparacaqsan.

**İmam Hüseynə (ə) əzadarlıq məclislərinin təşkili**

İmam Səccad (ə) və həzrət Zeynəb (ə) Kərbəla faciəsinin ilk günlərindən əzadarlıq etdilər və bu məqsədlə təşkil olunan ilk matəm məclisi Yezid hökumətinin paytaxtı olan Şam şəhərində baş tutdu.

Yezid yeritdiyi siyasətin baş tutmadığını görüb, başqa fəndə əl ataraq xalqa peşman olduğunu göstərməyə can atdı və əsirlər karvanına qarşı bir sıra təzyiqləri azaltdı. Fürsətdən istifadə edən həzrət Zeynəb (ə) qardaşı imam Hüseynə (ə) matəm saxlamaq üçün Yeziddən icazə istədi. Sözsüz ki, bu təklifin özündə imam Səccadın (ə) mühüm rolu bardı. Yezid müxalifət edə bilməyəcəyini görüb, matəm saxlamağa icazə verdi. Beləliklə, imam (ə) və o həzrətlə birlikdə olanların hamısı Şamın darül-hücrəsində yeddi gün əza məclisləri təşkil etdilər. Bu məclislərdə çoxlu insan iştirak edir, imam Hüseynin (ə) və digər şəhidlərinin adını, onların necə fədakarlıq etdiklərini və onlara edilən zülmləri hamı eşidirdi. Camaatın hisləri o qədər təhrik olmuşdu ki, onlar Yezidin sarayına hücum etmək, onu öldürmək istəyirdilər. O zaman Mərvan Şamda idi və hakimiyyətin təhlükədə olduğunu anlayıb, Yezidə dedi: Əli ibn Hüseyni (ə) və digər əsirləri Şamda saxlamaq məsləhət deyil. Onları tez Mədinəyə yola sal. Nəhayət, yeddi gün əzadarlıqdan sonra Yezid onları Mədinəyə göndərdi.





**İmam Səccad (ə) imamət vəzifəsində**

Həzrət Zeynəlabidin (ə) insanlara düzgün həyat yolunu öyrədir, onlara yardım göstərir, çətinliklərinin aradan qalxmağı üçün dua edir, düşmənə qəti mövqeyini bildirir, İslamın müdafiəsində heç nədən qorxmurdu. İmam insanlara Qurana bağlanmağı, Əhli-beytə (ə) sığınmağı öyrədir, onlara dünya və axirətdə nicat tapmağın, hidayət olmağın yolunu göstərirdi.



Eləcə də onlara Allahın dərgahına necə üz tutmağı, günah və çirkinliklərdən necə çəkinməyi müxtəlif yollarla başa salırdı.

Hazırda əlimizdə o həzrətin (ə) həmin mövzuları əhatə edən çox dəyərli əsəri vardır. İmamın oxuduğu bütün ürəyəyatan dualar və dua dili ilə deyilən ilahiyyat, əxlaq, ədəb, əhkam və s. həyata dair məsələlər “Səhifeyi-Səccadiyyə” adlı həmin əsərdə toplanıb.

## İmam Hüseynin (ə) müsibətlərinə ağlamağa təşviq

İmam Səccad (ə) özü atası imam Hüseynin (ə) müsibətlərini yada salaraq ağlayır və camaatı da buna təşviq edir, o həzrətə (ə) ağlamağın faydalarını onlara açıqlayır, Allahın bu işi sevdiyini və buna görə savab və mükafat verəcəyini buyururdu. Həzrət bir hədisdə deyir: “Mütəal Allah imam Hüseynin (ə) qətlə yetirilməsinə görə gözləri dolan və göz yaşı üzünə axan mömin üçün cənnətdə əzəmətli saraylar verər və orada yüz illər boyu yaşayar.”

Sözsüz ki, həzrətin məqsədi təkcə hissə qapılaraq Hüseynin (ə) müsibətlərinə ağlamaq deyildi. İmamın hədəfi insanlara müxtəlif vasitələrlə zülm, zalım və zülmün növlərini tanıtmaq, onları zülm əleyhinə mübarizəyə hazırlamaq idi. Əslində, indiyə qədər davam edən bu əzadarlıqlar imam Hüseynin (ə) əsl ideyası olan yaxşılığa dəvət və pislikdən çəkindirməni yaşatmaq üçündür.



## İmam Səccadın (ə) şəhadəti

Artıq hakim rejim də imamın (ə) mübarizə metodunu anlamışdı və bunu hakimiyyət üçün ciddi təhlükə hesab edirdi. Beləliklə, hicrətin 95-ci ili, məhərrəm ayının 25-də imamı zəhərləyərək şəhid etdilər.

Nəhayət, o həzrət (ə) Bəqi qəbiristanlığında əmisi imam Həsənin (ə) məzarı yanında dəfn edildi.



## O həzrətin kəlamlarından:

“Cəhənnəm odundan qorxan şəxs günahlarından tövbə edər.”

“Əgər biri səni söydükdən sonra üzr istəyərsə, onu bağışla.”

“Pis işi tərk etməkdən çəkinmə; hətta bu əməlinlə məşhur olsan da.”



# İmam Səccad (ə)

